Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 6 (1134) 13 yanvar - 14 yanvar 2016-cı il

# CƏLİLABAD - 2015

(əvvəli ötən sayımızda)

**Bu gün ölkə həyatının ən önəmli məqamlarından biri təbii ki, əhalinin sosial durumudu. Bu mənada həyata keçirilən bütün tədbirlər Azərbaycan insanının həyat səviyyəsini yüksəltmək və bütün dünyada baş verən sosial gərginliklərdən, infilyasiyalardan müəyyən qədər qorumaqdı. Bax elə bugünlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən son müşavirədə də ölkə prezidenti hər bir qurum qarşısında bu məsələni xüsusi olaraq bir vəzifə kimi qoymuş və üzən məzənnəyə keçməklə bağlı əhalinin yaşadığı müəyyən problemlərin diqqətdə saxlanması, həm də həmin problemlərin aradan qaldırılması yollarının tapılmasını əsas vəzifə kimi vurğulamışdı. Deməli, görülən bütün işlər ölkə həyatının sosial-iqtisadi sahəsini nizamlamaq, inkişaf etmək məqsədi ilə gerçəkləşdirilir. Bax bu mənada Cəlilabad rayonunda da görülən tədbirlərin əsas məram və məqsədi rayon sakinlərinin sosial durumunu yaxşılaşdırmağa hesablanıb.**

> **"... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bü gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Biz rayonda olarkən əldə etdiyimiz faktlar bir daha göstərdi ki, rayon icra hakimiyyətinin başçısı və onun aparatı bir komanda kimi ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün qətiyyətli addımlar atır. Bu da təbii ki, öz bəhrəsini verir. Arxada qalan ilin yekunları ilə bağlı və bütövlükdə görülmüş işlərə ölkə rəhbərliyinin münasibəti ilə əlaqədar fikir bildirən rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov keçirilən müşavirədə bildirmişdi ki, "rayonumuzda səfərdə olan möhtərəm prezidentimiz cənab İlham Əliyev rayonumuzla bağlı vurğulayıb ki, Cəlilabadda çox gözəl əhval-ruhiyyə var, rayon inkişaf edir, insanlar rahat yaşayır. Son illər Cəlilabadda həm iqtisadi, həm də sosial sahədə çox böyük işlər görülür, gözəl obyektlər tikilir, parklar, xiyabanlar salınır, rayon sürətlə inkişaf edir, həm sosial, həm də iqtisadi məsələlər öz həllini tapır, insanların rahatlığı və iqtisadi inkişafın dərinləşməsi üçün bir sıra infrastruktur layihələr həyata keçirilir. Cəlilabad Azərbaycanın ən gözəl şəhərlərindən biridir, Cəlilabada daim yüksək səviyyədə diqqət göstəriləcəkdir".





Verilən bu qiymət təbii ki, ölkə rəhbərinin həm də Cəlilabada və cəlilabadlılara qayğısının ifadəsidir. Məhz Azərbaycan Prezidentinin bütün bölgələrə, o cümlədən də Cəlilabada olan diqqət və qayğısı Regionların İnkişafına Dair Dövlət Proqramının gerçəkləşməsində bu infrastruktur layihələrinin reallaşmasında əsas söz sahibidir. Bir az da fikrimizi konkret ifadə etsək deyə bilərik ki, məhz ölkə prezidentinin daimi diqqəti, verdiyi tapşırıqlar Azərbaycanın hər bir regionunun inkişafında özünü büruzə verir. Bu mənada müqayisəli şəkildə diqqət yetirsək, onda görərik ki, bu gün Cəlilabadda tikintisi başa çatdırılan bir sıra sosial və istehsal təyinatlı obyektlərin insanların xidmətinə verilməsi təbii ki, müsbət haldır. Üstəlik, bu gün regionda ən mühüm obyektlərdən biri də bölgədə analoqu olmayan Heydər Əliyev Mərkəzidir. Xatırlatmaq yerinə düşər ki, inşasına hələ 2014-cü ildə başlanmış və ümumi sahəsi 80800 kv.metr olan Heydər Əliyev Mərkəzi böyük bir kompleksi xatırladır. Bu mərkəzdə Ulu Öndərin fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən kifayət qədər kitablar, fotolar, sənədlər və sairə toplanıbdı. Buradakı 110 kv.metrlik sərgi salonu, 700 yerlik 2 konfrans zalı, anfiteatr, nikah salonu, yeni ailə quranlar üçün psixoloji məsləhət, ana və uşaq, geyim, qrim, milli rəqs, aerobika, xalça və tikiş otaqları, kompüter və xarici dil kursları, şən və hazırcavablar klubu, rəsm-heykəltəraşlıq studiyası, müasir formatlı 3D kinozalı, fotostudiya, kitabxanalar, internet-kafe və sairə fəaliyyət göstərir. Təbii ki, bütün bunlar da rayon sakinlərinə, xüsusilə gənclərə xidmət edir. Yaradılan bu şərait özü-özlüyündə Cəlilabadda müasir həyatın təkcə tələbatını yox, həm də onun gerçək inkişaf səviyyəsini ifadə edir.

Bu gün Cəlilabad rayonunda təhsil, səhiyyə sahəsində də uğurlu addımlar atılır. Ümumiyyətlə bu rayonda görülən işlərdə Heydər Əliyev Fondunun təşəbbüsü, yardımı danılmazdı. Məhz millət vəkili, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə diqqət və qayğısı ilə rayonda xeyli layihələr gerçəkləşdirilib. Onların arasında Cəlilabad şəhərində hər bir 100 yerlik iki körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi rayon sakinlərinin böyük sevincinə səbəb olmuşdur. Onu da vurğulamaq yerinə düşər ki, istifadəyə verilmiş həmin ikimərtəbəli məktəbəqədər müəssisələr müasir mebel dəstləri ilə, oyun otaqları balacaların zövqünə uyğun bir şəkildə hazırlanmışdı. Burada yaradılmış şərait, körpələr üçün gətirilmiş oyuncaqlar, əyləncə guşələri körpələrlə yanaşı valideynlərin də ürəyincə olmuşdu.

**Bu gün Cəlilabad rayonunda daha bir yüz yerlik körpələr evi, uşaq bağçasının şəhərin Həzi Aslanov küçəsində istifadəyə verilməsi üçün demək olar ki, yekunlaşdırma işləri sürətlə davam etdirilir. Yəqin ki, cari ildə bu yüz yerlik körpələr evində qapılarını cəlilabadlı körpələrin üzünə açacaqdı.**

**(Ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ